

Lütviyyə Əsgərzadə,
*filologiya elmləri namizədi*

*"Cavidi gözəlliyi axtara-axtara və gözəlliyə salınan işığın izi ilə axıra qədər başa düşmək olar"(6, s. 105). Həqiqətən də, H.Cavid gözəlliklərlə dolu dünyada-hər şeydə bir gözəllik axtarırdı.*

*Dünya və təbiət gözəlliklərlə doludur. Lakin bu gözəlliyi görmək və duymaq hər kəsə nəsib olmur. Cavid insanda, təbiətdə və dünyada nəinki gözəllik axtarırdı, hətta o insandakı, təbiətdəki və dünyadakı gözəlliyə tapınırdı - desək heç də səhv etmərik. İnsan adətən dünyaya gələndən Allahı axtarır, ona sevgi ilə yaşayır. Cavid isə gözəlliyi və sevgini özünə Tanrı sayırdı.*

# "Afət" əsərində mühit və gözəllik problemi

Bir şərqli kimi Cavidin gözəllik meyarı çox maraqlıdır. Görəsən Cavid üçün gözəllik nə idi və ya gözəlliyin meyarı nə ilə ölçülürdü? Gözəl deyəndə Cavid hansı gözəlliyi, insanın estetik görüntüsünümü nəzərdə tuturdu, yoxsa mənəvi gözəlliyini?

Bu suala cavab tapmaq üçün Cavid yaradıcılığına nəzər salmaq kifayətdir. Çünki bu sualın cavabını onun yaradıcılığında tapmaq mümkündür. Cavidin "Mən gözəllərdə gözəl ruh araram. Ruhu düşkünləri çirkin sayaram" misraları elə bu suala verilmiş cavabdır. Yəni estetik görünüşünə görə gözəl görünmək hələ gözəl olmaq deyil. Mənəviyyatca, insan daxilən də gözəl olmalı, yəni "gözəl ruh"a sahib olmalıdır. Yəni əsl gözəllik mənəvi gözəllikdir. İnsanın mənəvi dünyası gözəldirsə, ruhu gözəldirsə özü də gözəldir. Çünki insanın daxili dünyası zahirinə də işıq salır. Xarici görünüşü, hüsn gözəlliyi, yəni estetik görüntüsü gözəl olan insanın daxili çirkindirsə, ruhu düşkündürsə ona gözəl demək olmaz. Bu həqiqətən də, belədir. Deməli, əsl gözəl həm zahirən, həm də daxilən gözəl olandır. Lakin bəzən H.Cavidin gözəllik və qadın anlayışına cavab axtaran zaman çox qəribə və ziddiyyətli məqamlara rast gəlmək olur, məs: "Afət" əsərində.

Afət zahirən gözəl, kübar cəmiyyətə məxsus bir qadındır. Hətta o qədər gözəldir ki, özü belə öz gözəlliyinin vurğunudur. Bu gözəllik Afətdə özünüsevmə, özünəvurğunluq, eqoistlik yaradıb. Bəs görəsən Afətə mənəvi cəhətdən gözəl demək olarmı?

Bu suala da, H.Cavidin təbirincə yanaşsaq deməliyik, bəli. Çünki Afət sevir, sevməyi bacarır, duyur. Ən azından bunun üçün ona mənəviyyatsız qadın demək olmaz. Demək, həm zahirən, həm də daxilən Afət gözəldir. Lakin hər gözəllikdə də bir çirkinlik var. Afət gözəldir, sevir-sevilir, Afət çirkindir, çünki bir neçə insanın faciəsini yaradır. Lakin Afətin də faciəsini yaradan var, bu da əri Özdəmirdir, Özdəmirin sərxoşluğu, əyyaşlığıdır. Özdəmir Afəti təhqir edir: "Qadın çox körpə ikən təzə bir çiçək, sonra şətarətli bir kələbək, daha sonra fuşnukar bir mələkdir. Yalnız bəziləri, əvət, bəziləri isə çamurlarda gəzən bir ördək, azğın və hərcayi bir ördəkdir" (1, s. 348). Düzdür, bu təhqirdə Afətin də payı var, lakin Özdəmirin sözləri ilk növbədə bir kişi kimi özünə, kişiliyinə təhqirdir. Onu bu hala salan sərxoşluğu və əyyaşlığı, süründüyü kübar cəmiyyətin yüngül qanunları və davranışlarıdır. Əslində bu cəmiyyətdəki kübarlıq dırnaqarasıdır. Bu cəmiyyətin özünəməxsus adətləri var ki, bunlardan biri də yüngül əyləncəni və davranışı "yeniləşmək" kimi qəbul etmələridir. Bu "yeniləşmə"nin türk ailələrinə qədər gəlməsi, bir türk ailəsinin bu dərəcədə "yeniləşmə"si və bu "yeniləşmə"ni bu şəkildə qəbul etməsi bu cəmiyyətin və bu cəmiyyətə məxsus insanların faciəsini yaradır. Normal əxlaq qaydalarına əməl edən Ərtoğrul "hala əski qafa ilə düşünürəm, hənuz bir türlü yeniləşəmədim" söylər (1, 355). Burada ən çox yeniləşən isə Özdəmir və Afətdir. Özdəmirin: "fəqət mən ... mən isə yeniləşdim; əski qafamla bərabər yeniləşdim, daha doğrusu məni yeniləşdirdilər. Sevgilim və rəfiqəm, bu gözəl Afət məni yeniləşdirdi. İştə onu da bu doktor, doktor Qaratay yeniləşdirmiş (Qəhqəhə). Əvət, o yeniləşdirmiş... (1, s. 355).

Bir şərqli gəncin bu qədər "yeniləşmə"si onun faciəsi deyilmi?

Bu cür "yeniləşmə" Türkiyə aristokrat mühitinin və kübar cəmiyyətinin eybəcərliyi-dırnaqarası aristokratlığı deyilmi? Bu yeniləşmə Avropa burjua əxlaqının Şərqə ekspansiyası deyilmi? Qərbin Şərqə təsiri deyilmi? Bu təsirin altına düşmüş bir mühitdə

